# *“Gündə bir çıxardır zakoni-təzə...”*
## *və ya pedaqoji işçilərin növbədənkənar attestasiyası ətrafında düşüncələr.*

*Akif MƏMMƏDOV*
*pedaqoji elmlər namizədi*

Müəllimin dərdləri, qayğıları haqqında çox yazılır. Ancaq şair demişkən: “Dəryalar mürəkkəb olsa, meşələr qələm, Mollalar yazdıqca dərdim var mənim”. Keçid dövrünün girdabında onsuz da başını itirən müəllimi dərs ilinin əvvəlində Təhsil Nazirliyi “sürprizlə” sevindirdi: pedaqoji işçilər attestasiyadan keçməlidir. Tələm-tələsik keçirilən attestasiyanın barını hələ dərməmiş maliyyə naziri yuxarılara məktub göndərdi: müəllimin güzəştləri ləğv olunmalı, stavka 14-dən 18 saata qaldırılmalı... Deyir, toxun acdan xəbəri olmaz. Cənab nazir bu tədbirlərlə guya ölkə büdcəsini kəsirdən qurtaracağını düşünürdü. Ancaq hardan biləydi ki, belə “zakoni-tazə” ilə o, müəllimin məktəbdən qaçmasını (və ya acından ölməsini) sürətləndirər, ağlamalı gündə olan təhsil daha da pis vəziyyətə düşər, büdcəyə isə heç bir xeyir gəlməzdi. Çünki nə qədər verir ki, geri alanda da cibi (və ya büdcəsi) dolsun.

Nə isə... Mətləbdən uzaq düşməyək. Baxaq görək, növbədənkənar attestasiya məktəbə, təhsilə nə verib? Redaksiyaya olunan çoxsaylı zənglər, pedaqoji işçilərlə söhbətlər, bu yaxınlarda attestasiya ilə bağlı televiziyada gedən canlı yayım və s. əsas verir ki, deyək: heç nə! Hər şeydən əvvəl, onu qeyd edək ki, attestasiyanın keçirilmə mexanizminin özü müxtəlif əyintilərə yol verməyə imkan yaradır və təbii ki, rüşvətxorluğun qanun səviyyəsinə qaldırıldığı bir məmləkətdə bu imkandan gen-bol istifadə ediləcəkdi.

Əvvəla, “Əsasnamə”yə görə, prosesə hər üç mərhələdə (müəssisə, rayon və nazirlik) bilavasitə idarə rəhbərləri başçılıq edirlər. Özləri attestasiya olunmayan bu rəhbərlərin prosesi düz-doğru aparmasına inam azdır. Əslində attestasiya yuxarıdan başlanmalı idi.

İkincisi, attestasiya komissiyasının üzvləri həmin müəssisənin öz işçiləridir. Söz yox ki, kollektivin üzvləri bir-birini daha yaxşı tanıyır və kimin hansı qabiliyyətin yiyəsi olduğunu bilirlər. Ancaq məktəblərdəki mövcud vəziyyət subyektiv mülahizələrin bu prosesdə üstün gəlməyəcəyini şübhə altına salır. Ona görə də attestasiyanı aparanlar bir

növ neytral mövqe tutan müstəqil tərəf olmalı idi.

Üçüncüsü, xüsusilə I və ali kateqoriyalı müəllim dərəcələrinə layiq görülənlər çox vaxt komissiyaya çağırılıb və onların “qabiliyyəti” şifahi sorğu ilə yoxlanıb. Suallar isə əvvəlcədən hazırlanmış ənənəvi suallar olub: Müasir dərsə hansı tələblər verilir? Öz dərslərində hansı metodlardan və ya texniki vasitələrdən istifadə edirsən və s.? Məsələnin nə qədər bayağı olduğu göz qabağındadır. Tutaq ki, müəllim dərsə verilən müsair tələbləri hardansa eşidib, bilir. Bu, onun həmin tələblərə cavab verən dərs keçdiyinə inanmağa əsas verirmi?

Ali kateqoriya müəyyən hallarda ancaq elmi dərəcəyə və ya mətbuatda çap olunan yazılara görə verilib. Ancaq bunların hələ heç biri müəllimin necə dərs keçdiyinə dəlalət vermir. Tanışlarımdan biri öyünürdü ki, onu ali kateqoriyaya təqdim ediblər, çünki qəzet və jurnallarda şeirləri (?!) ilə çıxış edib. Bir başqasınınsa mətbuatda çap olunan məqalələri kənddən-kəsəkdən göndərdiyi xəbərlər olub...

Ayrı-ayrı kateqoriyalara verilən kriteriyalar da son dərəcə ümumi və sürüşkəndir. Buna görə də, tutaq ki, II kateqoriyaya məsləhət bilinmiş işçinin görüm-baxımdan sonra I kateqoriyaya (nisbətən yuxarıya) “ötürülməsi” çox asandır.

Attestasiya prosesində müəllimin yaşının və ya stajının çoxluğuna “Hörmət edərək” yüksək kateqoriya vermə, yaxud yaxşı işləsə də, “Hələ cavansan”, - deyib aşağı kateqoriyaya təqdim etmə halları da olub. Söz yox, “səbəblər” sənədlərdə öz əksini başqa cür tapıb...

Çox fikirləşsəm də, bir məsələni özüm üçün aydınlaşdıra bilmədim: Görəsən, nə üçün “müəllim” və “II kateqoriyalı müəllim” kateqoriyalarını müəssisə, “I kateqoriyalı müəllim”i təhsil şöbəsi, “ali kateqoriyalı müəllim”i isə nazirlik təsdiq etməlidir? Bu, payın bölüşdürülməsi deyil ki?...

Yazını kədərli hisslərlə bitirəndə yadıma əsl (növbəti) attestasiyanın sentyabrda başlanacağı düşdü və təskinlik tapdım. Yeməkdən ümid yaxşıdır...

***“Azadlıq” qəzeti, 25 fevral, 1995***